**Abdulov, Ərəstun**. Qəlbimizdə yaşayanlar / Ə. Abdulov // Respublika. - 2022. - 19 yanvar. - **№ 12**. - S. 8.

**Respublikamızın ərazi bütövlüyü uğrunda aparılan Vətən müharibəsində torpaqlarımızı düşmən tapdağından canı bahasına azad edən və Şəhidlik zirvəsinə yüksələn igid oğullarımızdan biri də şəhid Hüseynli Şamil Novr uz oğludur. Şəhidimiz 1993-cü il yanvar ayının 8-də İmişli rayonunun Cəfərli kəndində dünyaya göz açıb. Vətən müharibəsində könüllü olaraq iştirak edib. Yaşasaydı, 29 yaşını qeyd edəcəkdi. Qəhrəman Vətən oğlu döyüş meydan ında göstərdiyi igidliyə görə ölümündən sonra ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən “Cəsur döyüşçü”, “Vətən uğrun da” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunub.**

İmişli Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Səfa Ağayev, aparatın məsul əməkdaşları, Vətən müharibəsi iştirakçıları və şəhidimizin ailə üzvləri, yaxınları, doğmaları və başqaları şəhidimizin dəfn olunduğu Cəfərli kənd qəbiristanlığında məzarını ziyarət edərək tər qərənfillər düzüb, xatirəsini dərin ehtiramla andılar. İgid Vətən oğlunun ruhuna dua oxuduqdan sonra rayon rəhbərləri və qonaqlar şə hidin ata ocağında olub, torpaq uğrunda canından keçən şəhidimizə Allahdan rəhmət, ailəsinə səbir dilədilər. Mərasimdə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Or dusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbədən danışan Səfa Ağayev bildirdi ki, həmin zəfərdə payı olan Hüseynli Şamil kimi qəhrəman oğullarımızla bu gü n hər birimiz fəxr edirik. 44 günlük savaşda əldə olunan tarixi Zəfərin müəl lifi olan Ali Baş Komandana, şanlı Azərbaycan Ordusuna, şəhidlərimizə, qazi lərimizə borclu və minnətdarıq. Şamilin doğum gününü onsuz qeyd etsək də, o, daim bizim qəlbimizdə yaşayır. 29 yaşında Şəhidlik zirvəsinə ucalan Şamil q ısa ömrünə yüz illərin qəhrəmanlıq dastanını sığdırdı.

Şəhidin ailəsi hər zaman onlara göstərilən diqqət və qayğıya görə razılığını i fadə edib, ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, minnətdarlıqlarını bildirdilər. Övladlarının doğum günündə onun xatirəsinin yad

olunmasını Şamilin timsalında bütün şəhidlərimizə olan hörmət və ehtiramın bariz nümunəsi kimi qiymətləndirdilər. Şəhidin valideynləri oğulları və onun kimi igid Vətən oğulları ilə hər zaman fəxr edəcəklərini ifadə etdilər.